Ədəbiyyat QƏZETİ

3 aprel / 2021

# Nəriman Həsənzadə - 90

Bu günlərdə Ağdaş rayon Mərkəzi kitabxanasında Mərkəzi kitabxananın və Azərbaycan Yazıçılar Birliyinin Ağdaş bölməsinin təşkilatçılığı ilə xalq şairi Nəriman Həsənzadənin 90 illiyi ilə əlaqədar "Nəriman Həsənzadə-90" adlı video formatda -tədbir keçirildi.

Tədbiri giriş sözü ilə MKS-nin direktoru Seyfəddin Feyzullayev açaraq bildirdi ki, çağdaş Azərbaycan poeziyasının keyfiyyətcə hansı səviyyədə olmasının məsuliyyətini birinci növbədə böyük yaradıcılıq təcrübəsinə malik sənətkarlarımızdan biri kimi Nəriman Həsənzadə də daşıyır.

Metodika və biblioqrafiya şöbəsinin baş biblioqrafı Könül Musayeva şairin həyat və yaradıcılığı haqqında danışdı.

Azərbaycan Yazıçılar Birliyinin Ağdaş bölməsinin sədri şair Fəxrəddin Əsəd qeyd etdi ki, Nəriman Həsənzadənin şeirlərində ürək döyünür. Çünki o, oxucusu ilə ürək dilində danışır. 44 günlük Vətən müharibəsi dövründə müsəlləh əsgərə çevrilən, ustad sənətkarımız şeirləri ilə ordumuzu qələbəyə səsləyirdi.

Tədbir iştirakçılarından Vüsalə Məmmədova, Sevinc İbrahimova, Tahilə Məmmədova, Nərmin Abdullayeva, Aygün Əhmədova, Güllü Cəfərova şair haqqında fikirlərini bildirdilər və şeirlərindən nümunələr səsləndirdilər. Sonda tədbir iştirakçıları sevimli şairə yeni yaradıcılıq uğurları və möhkəm can sağlığı arzuladılar.

*Sevgili İbrahimova*